yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur






2 BİBLİOBURRO VƏ YA KİTAB YÜKLÜ EŞŞƏKLƏR
3 TÜRKİYƏDƏN QƏRBƏ SEÇKİ TOKATI
4 KÖNÜLDƏN QOPAN BIR NEÇƏ SÖZ
5 ÖZ HƏYATINI YAŞAYAN AVSTRİYALILAR

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 İYUN 2018-Cİ İL
№009 (68)

## GÜRCÜSTANIN YENİ BAŞ NAZİRİ VƏ HÖKUMƏTİ TƏSDİQ OLUNUB



İyunun 20-si keçirilən növbədənkənar iclasda Gürcüstan Parlamenti yeni baş nazir Mamuka Baxtadze və hökumətə etimad göstərib. 6 səs əleyhinə olmaqla Gürcüstan Parlamenti 99 səslə Mamuka Baxtadzenin rəhbərliyi ilə Gürcüstan hökumətinin yenilənmiş tərkibini təsdiqləyib.

Yeni hökumətdə iqtisadiyyat və davamlı inkişaf, xarici işlər və maliyyə naziri dəyişib.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri vəzifəsinə Giorgi Çerkezişvili, xarici işlər naziri vəzifəsinə David Zalkaliani, maliyyə naziri vəzifəsinə isə Nikoloz Qaqua təsdiq olunub.

Həmçinin qanunverici orqan yeni hökumətin "Azadlıq, sürətli inkişaf, firavanlıq" proramını da qəbul edib.

Qeyd edək ki, Gürcüstanın keçmiş baş naziri Giorgi Kvirikaşvili iyunun 13-də istefa verib. İyunun 14-də Parlament çoxluğu maliyyə naziri Mamuka Baxtadzenin baş nazir vəzifəsinə namizədliyini irəli sürüb.

## GİORGİ MARQVELAŞVİLİ RƏCƏB TAYYİB ƏRDOĞANI SEÇKİLƏRDƏ QALİB GƏLDİYİNƏ GÖRƏ TƏBRİK EDİB



Gürcüstan prezidenti Giorgi Marqvelaşvili Rəcəb Tayyib Ərdoğanı Türkiyənin prezident seçkilərində qalib gəldiyinə görə təbrik edib.

"Xüsusən qeyd etmək istəyirəm ki, türk xalqı ölkənin bundan sonrakı inkişafına, sülhünə, təhlükəsizlik və stabilliyinə səs verib ki, gələcək firavanlıq və uğuru təmin etsinlər. Son dövr ərzində biz sizin ölkənin siyasi, iqtisadi və mədəni inkişafının şahidi olduq. İnanıram ki, sizin rəhbərliyiniz dövründə Türkiyə Cümhuriyyəti uğurlu inkişaf üçün yeni yüksəkliklər fəth edəcək", – Giorgi Marqvelaşvilinin rəsmi səhifəsində yayımlanan təbrik məktubunda deyilir.

Prezident qeyd edir ki, "Gürcüstan və Türkiyə Cümhuriyyətini çoxillik dostluq, güclü mədəni əlaqələr və uğurlu əməkdaşlıq bağlayır" və iki millət yeni uğurların və firavanlığın qorunması üçün həmişə birgə dayanıblar.

"Əminəm ki, bizim ciddi tərəfdaşlığımızı nəzərə almaqla, əməkdaşlığımızı daha da dərinləşdirməklə birgə gücümüzlə hər iki ölkənin firavanlığı üçün bir çox uğur əldə edəcəyik. Zatililəri, xahiş edirəm mənim dərin hörmətimi qəbul edəsiniz. Sizə xoşbəxtlik, sağlamlıq və dost türk xalqının əmin-amanlığı və firavanlığı üçün başlayacağınız gələcək işlərinizdə uğurlar arzulayıram", – Gürcüstan prezidentinin tərbik məktubunda yazılıb.

## TÜRKİYƏ SEÇİCİSİ RƏCƏB TAYYİB ƏRDOĞANA VƏ AKP-YƏ SƏS VERDİ



İyunun 24-də Türkiyədə növbədənkənar prezident və 27-ci çağırış parlament seçkilərinə dair səsvermənin nəticələrinə görə Rəcəb Tayyib Ərdoğan yenidən prezident seçilib və onun sədri olduğu Ədalət və İnkişaf Partiyası (AKP) seçicilərin etimadını qazanıb.

Bu barədə Ali Seçki Komissiyasının (ASK) sədri Sədi Güvən məlumat verib. ASK-nin sədri bildirib ki, ölkə üzrə 59.354.840 seçicinin 87 faizdən çoxu səsvermədə iştirak edib.

Seçicilərin 52.6 faizi prezidentliyə namizəd Rəcəb Tayyib Ərdoğana etimad göstərib. Məhərrəm İncə seçicilərin 30 faizinin səsi ilə ikinci yerdə qərar tutub.

Parlament seçkilərinə keçirilən səsvermədə isə Ədalət və İnkişaf Partiyası ilə Millətçi Hərəkat Partiyasının birləşdiyi Cümhur İttifaqı birinci yeri qazanıb. Beləliklə, Türkiyə Böyük Millət Məclisindəki 600 mandatın 293-nü Ədalət və İnkişaf Partiyası qazanıb. Digər mandatların 146-sı Cümhuriyyət Xalq Partiyasının, 67-si isə Xalqların Demokratik Partiyasının, 49-u Millətçi Hərəkat Partiyasının, 45-i isə İYİ Partiyanın payına düşüb.

## BAŞ NAZİR HÖKUMƏTİN YENİ STRUKTURUNU TƏQDİM EDİB



Gürcüstanın baş naziri Mamuka Baxtadze hökumətin yeni strukturunu təqdim edib. Yeni struktura əsasən 13 nazirlik əvəzinə 10 nazirlik və 1 dövlət naziri aparatı olacaq. İdman və Mədəniyyət müəssisələri Təhsil Nazirliyinə, Cəzaların İcrası və Probasiya Nazirliyi Ədliyyə Nazirliyinə birləşdirilir. Qaçqınların İşi və Yerləşdirilməsi üzrə Nazirlik ləğv olunaraq səlahiyyətləri 3 dövlət qurumu arasında bölüşdürülərək yerləşdirmə funksiyası İnfrastruktur və Regional İnkişaf Nazirliyinə, miqrasiya Daxili İşlər Nazirliyinə, sosial siyasət isə Səhiyyə Nazirliyinə veriləcək. Qalan nazirliklər olduğu kimi fəaliyyətlərinə davam edəcəklər.

Dəyişikliklər yalnız nazirliklərdə deyil, hökumət tərkibində olan başqa strukturlarda da aparılıb.

Belə ki, Dini Agentlik Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatına birləşəcək.

Baş nazirin sözlərinə görə, bu dəyişikliklərlə kiçik hökumət konsepsiyasına başlanğıc veriləcək.

"Əlbəttə struktur optimizasiyasının izində hökumət xərcləri azalacaq və ümumi daxili məhsula yanaşmada mərhələli şəkildə 3,9 faizə enəcək. Bu, bizim rəhbərlik edə biləcəyimiz ən yüksək tavan olacaq", – bildirib Mamuka Baxtadze.

Qeyd edək ki, M. Baxtadzenin başçılıq etdiyi və 14 nazirlikdən ibarət müvəqqəti hökumət iyunun 20-dən fəaliyyət göstərir. Hökumətin yeni strukturu bu yaxınlarda etimad göstərilməsi üçün Parlamentə təqdim olunacaq.



# BİBLİOBURRO VƏ YA KİTAB YÜKLÜ EŞŞƏKLƏR

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

**Sizə bir müəllim haqqında danışmaq istəyirəm. Bəli, bəli, yenə müəllim. Çünki müəllimlik həqiqətən də müqəddəs peşədir. Bu peşənin müqəddəsliyini təsdiqləyən və onu gözdən salan da elə müəllim özüdür bəzən. Ötən yazıların birində haqqında danışdığım müəllim həmyerlimiz Lado Apxazava idi. İndi təqdim edəcəyim müəllim isə uzaq Kolumbiyada yaşayır (Müəllim haqqında yaşadır ifadəsi daha düzgün olardı məncə). Mən durub geosiyasi arenada nələrin baş verdiyindən, Trampın İrana qarşı sanksiyalarından, Koreya liderlərinin görüşündən, Kolumbiyadakı prezident seçkilərindən yazası deyiləm, əziz oxucu. Çünki indi yazacağım (və bəlkə gələcəkdə yazmağa davam edəcəyim) mövzu sənə, mənə, yaşadığımız bölgəyə daha maraqlı olmalıdır. Çünki hər şey məktəbdən, müəllimdən, təhsildən asılıdır.**

Keçək mətləbə. Deməli, qəhrəmanımız milliyətcə ispan (əslində bunun əhəmiyyəti də yoxdur, məlumat üçün yazıram) olan Luis Sorianodur. Deməli, Luis müəllimin iki eşşəyi var. Eşşəklərdən birinin adı Alfa, digərininki isə Betadır. Əvvəllər Luis müəllim bu eşşəklərlə su daşıyırmış. İndi eşşəklər Luis müəllimə təhsil və maarif işində köməklik göstərirlər. Luis müəllim Alfa və Betanı içinə təxminən 120-yə qədər kitab yerləşən, eşşəklərin belində rahat duran xüsusi rəflərlə yükləyib Kolumbiyanın kəndlərini bir-bir gəzərək kənd uşaqlarına kitablar oxuyur. 11 kilometrə qədər yol gedən səyyar kitabxana 8 saat yollarda olur. Uşaqlar kitablarla yüklənmiş uzunqulağın üstündə əlində BİBLİOBURRO yazılmış qırmızı lövhə tutan Luis Sorianonu görəndə çox sevinirlər, görüşünə qaçırlar. Luis müəllim elə təbiət qoynundaca yerini rahatlayıb, uşaqları ətrafına toplayıb onlara kitab oxumağa başlayır. Biblioburro eşşəklərin üstündə kitabxana deməkdir. Səyyar kitabxana olan BİBLİOBURRO kənd uşaqlarının sevincidir. Və bu, 20 ildir ki, belə davam edir.

Təkcə eşşəklərinin belini deyil, evini də kitabxanaya çevirən Luis müəllimin 3480 kitabı var. Evinə yerləşməyən kitabları isə saxlamaq üçün dostlarına verib.

Luis müəllimin ən böyük arzusu kitabxana açmaq və hər uşaq üçün kitabın əlçatan olmasıdır. O, bu işdən heç bir qazanc əldə etmir. Sadəcə uşaqlara kitab oxuyur və oxutdurur. Çünki kitab oxumayan cəmiyyətlərin irəli gedə bilməyəcəyini yaxşı bilir. Bilir ki, kitab oxumayan cəmiyyətlərdə cahillik, lazımsız adət-ənənələr, xurafat, nifrət, terror, hətta antisanitariya hökm sürür.

Kitabı isə müəllimlər sevdirməlidir şagirdlərə. Bəs bizim müəllimlər özləri kitab oxuyurlarmı görəsən? Dünya ədəbiyyatından xəbərləri varmı? Müasir ədəbi prosesləri izləyirlərmi? Yoxsa elə Səməd Vurğundan başqa şair tanımırlarmı yenə? Məsələn, Britaniyada şagirdlərdən məktəbi bitirməmiş oxunması vacib olan kitabların siyahısını soruşublar. Məktəb şagirdləri Corc Oruelin "1984", "Heyvanıstan", Con Steinbekin "Siçanlar və adamlar", Selincerin "Covdarlıqda uçurumdan qoruyan" və s. kitablarını oxumağı məsləhət görüblər. Siyahı uzun olduğu üçün hamısını bura qeyd edə bilmirəm təəssüf. Yazımızın formatı buna imkan vermir. Bəs bizim müəllimlər bu kitablardan heç olmasa birinisə oxuyublarmı?

İnanmıram ki bizlərdən kimsə kolumbiyalı Luis müəllim kimi kənd-kənd düşüb uşaqlara kitab oxusun. Kolumbiyalı Luisin eşşəyi var, "Opel"i, "Mercedes"i yoxdur, olsaydı maarifləndirmək işində daha çox çalışardı yəqin. Bizim maşınlı müəllimlər bunu edərmi? Etməsin. Heç olmasa arada dünya ədəbiyyatı nümunəsi də oxusun və oxuduğu kitabı şagirdlərinə də məsləhət görsün.

Hər halda biliksiz müəllim yoxdur. Biliyini ötürməyən, başqasına öyrətməyən məsuliyyətsiz müəllim var. Qurani-Kərim kitabı oxuyan, inanıb əməl etməyənləri, elmi olub, əməli olmayanları "kitab yüklü eşşəklər" adlandırır. Məhəmməd Peyğəmbər bilik öyrətməyi hər cür ibadətdən üstün sayır.

**Mən indi bu yazını müəllimlərimin əməyi nəticəsində yazıram. Əlimdən tutub mənə yazmaq öyrədən, kitab oxumaq öyrədən müəllimlərimin ələrindən öpürəm. Nə yaxşı ki, vicdanlı, məsuliyyətli müəllimlər də var. Luis müəllimi isə nümunə götürək: oxuyaq və oxutduraq.**

# BAŞ NAZİR: 2019-2020-Cİ İLLƏRDƏ TƏQAÜD 20-20 LARİ ARTIRILACAQ



Baş nazir Mamuka Baxtadze Parlamentdə deputatları "Azadlıq, sürətli inkişaf, firavanlıq" proqramı ilə tanış edib.

Baş nazir bildirib ki, 2019-2020-ci illərdə 20-20 lari dəyərində təqaüdlərin artırılması planlaşdırılır və bunun üçün büdcədə əlavə 400 milyon lari nəzərdə tutulub.

"Bütün Gürcüstan vətəndaşları yenə də tibbi xidmətlə bağlı yüksək xərclərdən mühafizə olunacaqlar. Həmçinin ən yaxşı beynəlxalq təcrübəni nəzərə almaqla ictimai və özəl əməkdaşlıq modelləri və mexanizmləri müzakirə olunacaq ki, işlə təmin olunan şəxslər sağlamlıqla bağlı olan xərclərin ödənməsinə qoşulsunlar.

Xüsusi səhiyyə proqramları istiqamətində maliyyələşdirmələr davam edəcək, gələcəkdə ehtiyacı olan hər bir vətəndaş C hepatitinin aradan qaldırılması proqramına qoşulmaq imkanına malik olacaq. Psixi sağlamlıq xidmətinin keyfiyyəti stasionar və eləcə də ambulatoriya səviyyəsində yaxşılaşdırılacaq. Onkoloji xəstəliklərin müalicəsinin müasir və yüksək keyfiyyətli metodlarının əsası qoyulacaq. Medikamentlərin əlçatanlığı məqsədi ilə əhalinin sosial müdafiəsiz hissəsi üçün xroniki xəstəliklərin müalicə medikamentləri ilə təmin edilməsinin dövlət proqramı qüvvəyə minəcək. Lakin bunlar yetərli deyil və bu istiqamətdə dövlət maliyyəni artırmalıdır. Hökumət ehtiyacı olan qrupların maddi durumunun yüngülləşdirilməsi üçün məqsədyönlü şəkildə sosial proqramlara davam edəcək. Fiziki imkanları məhdud olan, yaşlı şəxslərin və qayğısız körpələrin fiziki və sosial vəziyyətinin yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlər genişləndiriləcək. Həmçinin 2019 və 2020-ci illərdə 20-20 lari dəyərində dövlət təqaüdünün artırılması planlaşdırılır. Bunun üçün biz orta müddətli büdcədə əlavə olaraq təqribən 400 milyon lari ayırmışıq", - deyə Mamuka Baxtadze bildirib.

# PULSUZ TORPAQ QEYDİYYATININ MÜDDƏTİ 2019-CU İLİN 1 YANVAR TARİXİNƏ QƏDƏR DAVAM EDƏCƏK

Ədliyyə Nazirliyinə namizəd Tea Tsulukiani Parlament komitələrinin birləşmiş iclasında bildirib ki, müvafiq qanunvericilikdə dəyişiklıklər yaxın günlərdə olacaq.

Əmlak hüququnun təmənnasız qeydiyyatını nəzərdə tutan torpağın asanlaşdırılmış şəkildə qeydiyyatı haqqında dövlət layihəsi 2016-cı ilin 1 avqust tarixindən qüvvəyə minib, onun qüvvədə olma müddəti 2018-ci ilin 1 iyul tarixində başa çatır.

Milli İçtimai Reyestr Agentliyinin rəsmi məlumatına görə, bu günə qədər layihə çərçivəsində 488 517 torpaq sahəsi qeydiyyatdan keçib. 60 617 torpaq sahəsinə dair müxtəlif müəssisələrdə sənədlərin axtarılması gedir, 23 813 ərizə isə bələdiyyələrin meriyasında mövcud olan mülkün tanınması komissiyalarındadır.

Təmənnasız şəkildə sonrakı xidmətlər həyata keçirilir: Sənədlərin axtarılması və sistemləşdirilməsi; Notarius tərəfindən razılığa tərəflərin imzasının təsdiqlənməsi; Mediasiya, həmçinin, notarial mediasiya; Torpaq sahəsinə dair əmlak hüququnun tanınmsı; Faktların konstatasiyası; Torpaq sahəsinə dair əmlak hüququnun ilkin qeydiyyatı, ölçü xətləri olmadan qeydiyyatdan keçmiş torpaq sahələrinin təsdiqlənməsi (elektron xətlər olmadan mövcud olan göstəricilərin təsdiqlənməsi məqsədi ilə dəyişikliklərin pulsuz qeydiyyatını nəzərdə tutur).

Qeyd etmək lazımdır ki, əmlak hüququnun müəyyən edilməsi prosesinə bələdiyyə də qoşulub.

# SÜRÜCÜLÜK VƏSİQƏSİNİN KATEQORİYALARINI DƏYİŞMƏK MÜDDƏTİ 2019-CU İLİN 1 MART TARİXİNƏ QƏDƏR UZADILACAQ



2006-cı ilin 1 aprel tarixindən 2014-cü ilin 1 mart tarixinə qədər Gürcüstanda verilmiş "C", "CE", "D", "DE", "C1", "C1E", "D1" və "D1E" kateqoriyalı sürücülük vəsiqəsinin hüquqi qüvvəsi 2019-cu ilin 1 mart tarixinə qədər saxlanılacaq.

"Yol hərəkəti haqqında" qanunu nəzərə alaraq qeyd olunan kateqoriyalı sürücülük vəsiqəsinin 2018-ci ilin 1 sentyabr tarixinə qədər müddəti var. Ancaq Parlamentdə təşəbbüs irəli sürmək üçün layihə hazırdır və layihə müddətin 2019-cu ilin 1 mart tarixinə qədər uzadılmasını nəzərdə tutur.

"Bugünkü vəziyyətə görə 481 000 yuxarıda qeyd olunan kateqoriyaya aid sürücülük vəsiqəsi verilib. Bundan 263 700 sürücülük vəsiqəsinin müddəti 2018-ci ilin 1 sentyabr tarixində başa çatır. 2018-ci ilin sentyabr ayına 3 aydan az müddət qaldığına görə bu sayda sürücülük vəsiqəsinin dəyişdirilməsi praktiki olaraq mümkün deyil. Çünki bir iş günü ərzində xidmət agentliyində olan resurslarla ən çox 2800 sürücülük vəsiqəsini dəyişmək mümkündür. "Yol hərəkəti haqqında" qanuna əsasən isə sürücülük vəsiqəsinin qüvvədə olması müddətinin başa çatması halında sürücülük vəsiqəsini dəyişənə qədər şəxsə nəqliyyat vasitəsini idarə etmək qadağan olunacaq", - layihənin izahat kartında qeyd olunur.

Qanunvericilik təşəbbüsü Parlament bürosuna yaxın iclasda təqdim olunacaq. Layihənin təşəbbüskarları Parlamentin üzvləri Qoqa Qulordava, Giorgi Xatidze və Merab Kvaraiadır.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ RƏSMİLƏRİ ARASINDA TELEFON SÖHBƏTİ OLUB



Gürcüstanın baş naziri Mamuka Baxtadze və Türkiyə Cümhuriyyətinin baş naziri Binəli Yıldırım arasında telefon söhbəti baş tutub.

Mamuka Baxtadze türk həmkarını seçkilərin uğurlu keçməsi münasibəti ilə təbrik edib və qeyd edib ki, Türkiyə Gürcüstanın vacib tərəfdaşıdır. Həmçinin regional layihələrdən və ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsindən söhbət açılıb.

Türkiyənin baş naziri Gürcüstanın suverenliyinə, ərazi bütövlüyünə və Gürcüstanın Avropa və Avroatlantikaya inteqrasiyasını dəstəklədiyini bildirib.

Tərəflər strateji tərəfdaşlığın dərinləşdirilməsi və çoxtərəfli formatlarda uğurlu əməkdaşlığın davam etdirilməsinə ümid etdiklərini qeyd ediblər.

Telefon söhbəti həmçinin Gürcüstanın xarici işlər naziri David Zalkaliani və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında da olub. Telefon əlaqəsi Gürcüstan tərəfinin təşəbbüsü ilə baş tutub. D. Zalkaliani həmkarını Türkiyədə keçirilən prezident və parlament seçkilərinin uğurlu keçməsi münasibəti ilə təbrik edib. Mövlüd Çavuşoğlu da öz növbəsində gürcü həmkarını yüksək vəzifəyə təyin olunmasına görə təbrik edib.

## İYULUN 1-DƏN DÖVLƏT İDARƏLƏRİ VƏ HÜQUQİ ŞƏXSLƏRƏ MƏXSUS AVTOMOBİLLƏRİN TEXNİKİ BAXIŞDAN KEÇİRİLMƏSİNƏ BAŞLANILACAQ

Cari ilin 1 iyul tarixindən dövlət idarələri və hüquqi şəxslərə məxsus avtomobillər müntəzəm olaraq yoxlamadan keçəcək.

Gürcüstan miqyasında fəaliyyət göstərən 37 yoxlama xətti olan 27 texniki baxış mərkəzində maneəsiz texniki baxışdan keçmək mümkündür.

Müntəzəm texniki baxışdan keçmə prosesinin asanlaşdırılması və xidmət səviyyəsinin artırılması üçün veb-səhifə yaradılıb (www.pti.ge). Veb səhifə vasitəsilə istifadəçi münasib gün və saatda texniki baxışdan keçmək üçün növbəyə yazılmaq imkanı əldə edir. Qeyd olunan veb-səhifə 2018-ci ilin yanvar ayından bütün istifadəçilər üçün əlçatandır.

Həmçinin 2018-ci ilin 3 yanvar tarixindən 1484 nömrəli qaynar xətt fəaliyyətə başlayıb ki, nəqliyyat vasitələrinin müntəzəm olaraq mərhələli şəkildə texniki baxışdan keçirilməsi prosesi və şərtləri ilə maraqlanan şəxslərə xidmət edir və onlara müvafiq məlumatlar verir.

## ƏDLİYYƏ NAZİRLİYİ: TEZLİKLƏ MOBİL ID APPLİKASİYASI YARADILACAQ



"Dövlət servislərinə çoxlu sayda xidmət əlavə olunub. Ayın sonunda tender elan olunacaq və əgər uğurlu alınarsa biz hamımız özəl sektorun yüksək keyfiyyəti ilə Mobil ID applikasiyası yarada biləcəyik. Onlar olmadan bu applikasiyanın əsasının qoyulması mümkünsüzdür.

Dövlət proqramı məhz bunu nəzərdə tutur ki, ölkəmizin vətəndaşları Ədliyyə Evinə, ictimai mərkəzlərə getmədən mobil telefon vasitəsi ilə xidmətlərdən istifadə edə bilsinlər.

İyulun 1-də bu qanun qüvvəyə minəcək. Bunu sizin təşəbbüsünüzlə qəbul etmişik. Bu rəqəmsal imza və rəqəmsal möhürdür. Bunun üçün bizim müəssisə hazırdır və özəl sektordan da maraq çox yüksəkdir", - deyə Tea Tsulukiani hökumət iclasında bildirib.

Məlumat üçün qeyd edək ki, Mobil ID elektron mühitdə fiziki ID karta bərabər sənəd kimi sertifikatlara bağlı olan mobil telefon SIM kartınızdır. Mobil ID ilə siz şəxsiyyətinizi təsdiq edə və sənədləri rəqəmsal imza ilə imzalaya bilərsiniz.

İdentifikasiya məlumatları və rəqəmsal imza yüksək səviyyəli təhlükəsizlik texnologiyası və müvafiq PIN kodlar ilə qorunur. Mobil telefon eyni zamanda həm elektron imza üçün smart kart (e-imza kartı), həm də kart oxuyucu qurğu kimi istifadə olunur. Mobil ID elektron xidmətlər mühitinə giriş üçün təhlükəsizlik aləti hesab edilir və rəqəmsal imzanın qoyulmasına imkan verir.

## PREZİDENT SEÇKİLƏRİNƏ 39 MİLYON LARİ VƏSAİT AYRILACAQ

Gürcüstanda bu ilin oktyabrında keçiriləcək prezident seçkilərinə dövlət büdcəsindən 39 milyon lari vəsait ayrılacaq. Bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Tamar Jvaniya bildirib.

O, prezident seçkilərinə hazırlığın artıq başlandığını deyib.

"Seçkilərə hazırlıq məqsədilə müxtəlif treninqlər təşkil olunur. Hesab edirəm ki, qarşıdan gələn seçkiləri əvvəlkilərə nisbətən daha hazırlıqlı təşkil edəcəyik", - MSK sədri bildirib.

## TÜRKİYƏDƏN QƏRBƏ SEÇKİ TOKATI



Sahib Mustafa
*sahib1975.sm@gmail.com*

**Türkiyədə keçirilən son növbədənkənar prezident və parlament seçkiləri bu ölkənin daxili gündəmini zəbt etsə də məsələ əhəmiyyət və nəticə baxımından onun hüdudlarından kənarda da diqqət mərkəzində idi. Cari ilin aprel ayında prezident Ərdoğan Türkiyədə həm ali qanunvericilik, həm də icraedici orqanlarına seçkilərin növbədənkənar keçiriləcəyi barəsində sərəncam imzalamışdı. Ərdoğanın belə bir qərar qəbul etməsinin arxasında duran nüansları analiz etmək və son seçkilərdən sonra dünya arenasında hansı Türkiyəni görəcəyimizə dair məsələlərə toxunmaq yerinə düşərdi.**

2017-ci ildə referendum yolu ilə qəbul edilmiş konstitusiya Türkiyənin parlament üsul idarəsindən geniş səlahiyyətlərə malik prezident respublikasına keçməsini nəzərdə tutur. Yeni konstitusiya 2019-cu ilin noyabr ayında keçirilməsi planlaşdırılan prezident seçkilərindən sonra qüvvəyə minəcəkdi. Hazırki dönəmdə Türkiyənin Qərb müttəfiqləri ilə münasibətlərində yaşanan böhran vəziyyəti Ankaranı kəsərli qərarlar qəbul etməyə vadar edir. Qərb dünyası Ərdoğanı Türkiyənin siyasi hakimiyyətini "özəllişdirməkdə" suçlayaraq onu hakimiyyətdən kənarlaşdırmaq üçün istənilən vasitələrə əl atması sirr deyil. Bu gün Günbatan ölkələrin Türkiyə məsələsində "qarın sancısı" Ərdoğanın hakimiyyətdə qalmasıdır. 2016-ci ildə dövlət çevrilişinin sifarişinin hardan gəlməsi də məlumdur. Əks təqdirdə Vaşinqton çox rahat bir şəkildə Güləni Ankaraya təslim edərdi. Odur ki, 2019-cu il üçün nəzərdə tutulmuş növbəti prezident seçkilərini vaxtından əvvəl keçirməklə Ərdoğan Vaşinqton və yandaşlarını qabaqlamaq, beləliklə də onun Türkiyənin daxilinə "uzanan əlini" boşa çıxarmaq istəyindən yaranması kimi də dəyərləndirmək olar. Lakin rəsmi dairələr növbədənkənar seçkilərin keçirilməsini bölgədə cərəyan edən proseslərdən, həmçinin Türkiyənin Suriya və İraqda apardığı antiterror əməliyyatlarından irəli gəldiyini vurğulayırlar. İstənilən halda, seçki keçirmək məsələsi hər bir dövətin daxili və suveren işidir. Əsas odur ki, bu seçkilər demokratik və şəfaf keçirilsin.

Seçkilərin nəticələrinə görə Ərdoğan prezident seçilməklə yanaşı, həm də onun rəhbərlik etdiyi AKP və Dövlət Bahçelinin MHP partiyaları koalisiya olaraq qanunvericilik orqanında da konstitusiya ilə üstünlük əldə etdi. Bundan sonra Ərdoğanın Türkiyə adına beynəlxalq arenada daha qərarlı addımlar atacağını söyləmək olar.

Batılı ölkələr 15 il hakimiyyətdə olan Ərdoğanın adını Osmanlı imperiyasının varisi kimi "diktator" və ya "sultan" titulu ilə əlaqələndirib Türkiyəni aşağılayırlar. Hakimiyyətdə demokratik yolla uzun müddət qalmağın düsturu "sultanlıq"dırsa, bəs nə üçün aşağı-yuxarı Ərdoğan qədər hakimiyyət təcrübəsi olan Almaniyanın federal kansleri Merkelə bu tip tarixi ləqəblər pərçimləmirlər?

Bu gün ABŞ və onun müttəfiqlərinin əsas çabası Türkiyədə onların maraqlarını qeyd-şərtsiz həyata keçirən "marianet hakimiyyət" formalaşdırmaqdan ibarətdir. Bu ölkədə son seşkilərdən sonra Qərb dünyası bir daha anlamalıdır ki, Türkiyə onlar üçün Misir, Liviya və ya İraq deyil. Misirin demokratik yolla seçilmiş prezidenti Mursini həbsə atıb, Abdul Əs Sisi kimi "əldədüzəltmə" dövlət rəhbərlərini Türkiyədə hakimiyyətə gətirmək qeyri-mümkündür. Bunun cavabını türk xalqı 2 il öncə bütün dünyaya nümunə kimi verdi.

Yaxın prespektivdə Türkiyə beynəlxalq siyasətin yönünü dəyişdirmək iqtidarına malik olan bir dövlətə çevrilmək potensialını daha da artırmış olacaqdır. Bu ölkə ilə masa arxasında oturub konstruktiv siyasət yürütməyin zamanı çoxdan gəlmişdir.

**Yolun açıq olsun, Türkiyəm!**



# KÖNÜLDƏN QOPAN BİR NEÇƏ SÖZ

Hacı BƏKİROĞLU
*hacibakir@mail.ru*

**Son bir neçə ayın dünyaca ən aktual mövzusu demək olar ki, Türkiyədəki prezident və parlament seçkiləri oldu. Bütün dünyanın gözü bu seçkilərdə idi. Çünki son zamanlarda Türkiyə dünyada İslam adına danışan ən aktiv ölkə, prezidenti Rəcəb Tayyib Ərdoğan da demək olar ki, İslam adına ən aktiv çıxış edən biri idi. Xarici qüvvələr nəyin bahasına olursa olsun onu hakimiyyətdən salmağı gözə almışdılar. Bunun üçün 2019-cu ildə Türkiyədə gerçəkləşəcək seçkilərə hazırlaşırdılar. Ancaq gözlənilmədən Türkiyə hakimiyyəti seçkilərin tarixini önə alaraq 24 iyun 2018 tarixinə çəkdi. Bu hadisə bəzi insanları çaşqınlığa saldı.**

Bu seçki mənim nəzərimdə həqiqətən də çox çətin və bir o qədər də müvəffəqiyyətli bir seçki oldu. Çünki bu seçkidə əsas olaraq bir tərəfdə millətin həqiqətən qayğısına qalan və ölkənin gələcəyini düşünən iki partiyadan Ədalət və İnkişaf Partiyası ilə Millətçi Hərəkat Partiyasının birlikdə meydana gətirdiyi Cümhur İttifaqı ilə Cümhuriyyət Xalq Partiyasının (CHP), İYİ Partiyasının, Səadət Partiyasının və Demokrat Partiyasının birləşərək meydana gətirdiyi Millət İttifaqı mübarizə aparırdı.

Bu mövzuda çox yazılar yazıldı və inanıram ki, bir çoxu da yazılacaq. Ancaq mən mövzuya başqa yöndən yanaşacam.

Hər kəsə bəllidir ki, R. T. Ərdoğan namaz əhli olan, dünya səviyyəsində də müsəlmanları və İslam ölkələrini müdafiə edən bir liderdir. Bu səbəbdən də bir çox Avropa ölkələri və Amerika onu sevmir və istəmir. Onun hakimiyyətdən getməsi üçün də əllərindən gələni edirlər. Bu seçimdə də elə onların tərəfdaşları olan və Türkiyədə fəaliyyət göstərən bir çox siyasi partiyalar prezidentlik uğrunda mübarizəyə qoşuldular. Bu normal bir haldır və hər bir partiyanın haqqıdır. Ancaq bu seçimdə qeyri adi olan hal bu namizədlərin uzun zamandır İslama qarşı olduqları bilindiyi halda artıq seçki xatirinə hər birinin "imanlı" namizədə dönüşmələridir. İllərdir dindar camaata etmədikləri əziyyət qalmayan, imamları və din müəllimlərini ya sürgünə, ya da edama göndərən Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi Məhərrəm İncə belə hər gün cümə namazı qılan hala gəlmiş, illərdir məscidlərin və azanın geridə qalmış bir adət olduğunu söyləyənlər ziyarət etmədikləri məscid buraxmamışlar.

Nə isə, bu seçki gerçəkləşdi və prezidentlik seçkisində Rəcəb Tayyib Ərdoğan, parlament seçkisində isə çoxluğu Cümhur İttifaqı qazandı. Bir daha türk milləti öz seçimini etdi. Bu qalibiyyət bəlkə də məzlumların duasının təcəllisi, bəlkə də imanlı şəxslərin gecə-gündüz gözyaşları içərisindəki yalvarışının nəticəsi idi. Onlar da bilirdilər ki, əgər bu dəfə AK Parti gedərsə məzlumlara sahib çıxan olmayacaq, 15 iyul çevrilişinə cəhd edənlərlə işbirliyi qurulacaq, dövlətin maddi mənbələri xaricilərin istifadəsinə veriləcək və türk xalqı yenə də zülmə uğrayacaq.

**Bir daha dost və qardaş türk xalqını təbrik edir, yeni birliyin və yeni sistemin Türkiyəyə və dünyaya xeyirli olması arzusu ilə deyirik.**

# TBİLİSİDƏ AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 100 İLLİK YUBİLEYİ QEYD OLUNUB

Azərbaycanın Gürcüstandakı səfirliyi Tbilisidə Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil edib.

Tədbir Azərbaycan və Gürcüstanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Mərasimdə çıxış edən Azərbaycanın Gürcüstandakı hərbi attaşesi, polkovnik-leytenant Fuad İbrahimov Azərbaycan ordusunun yaranma tarixindən danışıb. Azərbaycan ərazilərinin 20 faizinin işğal olunduğunu xatırladan hərbi attaşe Ermənistanın təxribatlarından əl çəkmədiyini və BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrini yerinə yetirmədiyini diqqətə çatdırıb.



F. İbrahimov hərbi sahədə Azərbaycan və Gürcüstan arasındakı uğurlu əməkdaşlıqdan da bəhs edib.

Sonra çıxış edən Gürcüstanın müdafiə naziri Levan İzoriya Azərbaycan ordusunun 100 illiyi münasibətilə Azərbaycan xalqı və rəhbərliyini təbrik edib. Nazir iki ölkə arasında hərbi əməkdaşlıq sahəsindəki münasibətlərin ilbəil daha da inkişaf etdiyini vurğulayıb. O, bildirib ki, hər iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq regionda inkişaf və təhlükəsizliyə xidmət edir: "Gürcüstan, Azərbaycan və Türkiyə arasında uğurlu üçtərəfli əməkdaşlıq mövcuddur".

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Vladimir Çaçibaya, müdafiə nazirinin müavini Lela Çikovani, Gürcüstan hökumət və Parlamentinin üzvləri, SOCAR rəhbərliyi, diplomatik korpusun nümayəndələri iştirak edib.

Mərasimə Qarabağ şəhidləri ailələrinin üzvləri və qaziləri də qatılıb.

Tədbir konsert proqramı ilə davam etdirilib.

# DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ GÜRCÜSTANDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRİB

Gürcüstanda səfərdə olan Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov iyunun 12-də Tbilisinin mərkəzindəki Heydər Əliyev abidəsini ziyarət edərək Tbilisidə bir sıra görüşlər keçirib.

Komitə sədrini Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

"Azərbaycan-Gürcüstan dostluğu nümunədir. Heç kim bu dostluğu sarsıda bilməz". Bu fikirlər Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Gürcüstan katolikosu II İlya ilə görüşündə səslənib.

Katolikos II İlya Azərbaycan nümayəndə heyətini salamlayıb, iki ölkə arasındakı əlaqələrin inkişafında dövlət başçılarının rolunu xüsusi qeyd edib. Bildirib ki, gürcü xalqı prezident İlham Əliyevin xüsusi diqqət və qayğısını daim hiss edir: "Bu gün SOCAR-ın Gürcüstanda həyata keçirdiyi layihələr bizim xalqlarımızın daha da yaxınlaşmasına, rifah halının yaxşılaşmasına xidmət edir".

Dövlət Komitəsinin sədri Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdikləri layihələrin regionda və dünyada sülhə, tərəqqiyə, sabitliyə xidmət etdiyini xüsusi qeyd edib: "Bizim münasibətlərimiz çox yüksək səviyyədədir və heç kim bu dostluğa zərər yetirə bilməz".

F.Muradov Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib. Hər iki dövlətin ərazi bütövlüyünün pozulmasını təəssüf hissi ilə qeyd edib, Azərbaycanla Gürcüstanın bir-birinin ərazi bütövlüyünü dəstəklədiyini xüsusi vurğulayıb.

Görüşdə iki ölkə arasında əlaqələrin digər sahələr üzrə də inkişaf etdirilməsinin vacibliyi qeyd olunub, münasibətlərin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə olunub.

Fuad Muradov Gürcüstana səfəri çərçivəsində iyunun 12-də Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrında olub. Komitə sədri teatrın rəhbərliyi və aktyorlarla görüşüb.

Teatrın bədii rəhbəri Varlam Nikoladze, direktor müavini, Azərbaycanın Əməkdar Mədəniyyət İşçisi Namiq Hacıyev teatrın fəaliyyəti, hazırladığı tamaşalar, Azərbaycan mədəniyyətinin təbliği, ölkələrimiz arasında mədəni əlaqələrin inkişafı ilə bağlı gördükləri işlərdən danışıblar.

Eyni zamanda, komitə sədrinə bu mədəniyyət ocağındakı vəziyyət barədə məlumat verilib.

Fuad Muradov teatrın kollektivini narahat edən məsələlərlə ciddi məşğul olacağını, bununla əlaqədar lazımi qurumların məlumatlandırılacağını bildirib.

Dövlət Komitəsinin sədri, həmçinin Nəriman Nərimanovun ev-muzeyində, M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində olub, Botanika bağındakı köhnə müsəlman qəbiristanlığında Azərbaycanın tarixi şəxsiyyətlərinin məzarlarını ziyarət edib.

Fuad Muradov Gürcüstan Parlamentinin vitse-spikeri, Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Zviad Dzidziquri ilə də görüşüb.

Görüşdə iki ölkə arasında münasibətlər və parlamentlərarası əlaqələr nəzərdən keçirilib.

Z. Dzidziquri Gürcüstanın Azərbaycanla münasibətlərə böyük önəm verdiyini qeyd edib.

F. Muradov iki ölkə arasındakı qardaşlıq münasibətlərinin çox yüksək səviyyədə inkişaf etdiyini bildirib: "Azərbaycan beynəlxalq müstəvidə Gürcüstanı hər zaman dəstəkləyib və bundan sonra da dəstəkləyəcək".

Komitə sədri Gürcüstan azərbaycanlılarının ölkənin ictimai-siyasi həyatında fəal iştirak etdiklərini qeyd edib. O, Gürcüstanın müsəlman icması ilə görüşdüyünü qeyd edərək Gürcüstanda din haqqında qanunun qəbuluna böyük ehtiyac olduğunu vurğulayıb.

Görüşdə Gürcüstan azərbaycanlılarını narahat edən məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri həmçinin barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili ilə görüşüb.

K. Tsixelaşvili görüşdə Gürcüstanda yaşayan etnik azlıqların vətəndaş cəmiyyətinə inteqrasiyası istiqamətində həyata keçirilən dövlət proqramı və layihələri barədə məlumat verib.

Dövlət naziri Gürcüstanda azərbaycanlıların sıx yaşadığı Kvemo Kartli bölgəsində milli azlıqlar üçün dövlət proqramları barədə məlumatlandırma kampaniyasına başlandığını diqqətə çatdırıb.

Görüşdə Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi və Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin aparatı ilə əməkdaşlığın davam etdirilməsi barədə razılıq əldə olunub.

Komitə sədri həmçinin tələbələrlə və azərbaycanlıların kompakt yaşadığı bölgələrdə də görüşlər keçirərək yerli sakinlərin problemləri ilə tanış olub, fikirləri ilə maraqlanıb.

# ÖZ HƏYATINI YAŞAYAN AVSTRİYALILAR

***"Əbədi olmaq öz ömrünü yaşamaq deməkdir" (Maks Friş – "Homo Faber").***

**İrlandiyadan sonra yolum Avstriyaya düşdü. Bir vaxtlar bunu təsəvvür belə etməzdim. Əlbəttə ki, arzularım arasında Avropaya yenidən qayıtmaq var idi, çünki bir semestr ərzində yetərincə görüb-götürə, necə deyərlər, doya bilməmişdim, amma hadisələrin bu qədər tez baş verəcəyi, yenidən, bir il yarımdan sonra bura oxumağa gələcəyim ağlımdan belə keçməmişdi. İrlandiyadan fərqli olaraq indi təhsilimin magistr dərəcəsi üçün oxuyuram. Hətta sosiologiyadan müvəqqəti olaraq uzaqlaşıb, bu dəfə təhsil idarəetməsi üzrə təhsil alıram. Bu dəyişimin səbəbi və məqsədi Gürcüstandakı təhsil sisteminin vəziyyətini dərk etməyim və bacardığım qədəri ilə ölkəmdəki təhsili yaxşılaşdırmaqdır. Bu yazımda isə ümumi olaraq Avstriya və avstriyalılar haqqında danışmaq istəyirəm. Buranın təhsil sistemindən isə gələn yazılarımda söhbət aparacam.**

Avstriya deyəndə ağlımıza çoxdan "kiminsə" yaratdığı bir stereotip (doğruluğu təsdiq olunmamış ilkin təəssürat, mövqe) gəlir: "Avstriyalılar soyuqdurlar". Bəli, fiziki baxımdan soyuq ola bilər, çünki Avstriya soyuq ölkədir. Mən Fevralda bura gələndə hava mənfi 17 dərəcə soyuq idi və bu soyuğu insan sümüklərində belə hiss edə bilirdi. Amma bu qətiyyən bizim düşündüyümüz soyuqluq mənasına, onların ürəksiz, daşqəlbli olduqları mənasına gəlmir, mənəvi "soyuqluqla" əlaqəsi yoxdur.

Maraqlıdır, obyektlər haqqında niyə heç vaxt doğru olub-olmadığı ilə maraqlanmadığımız. Əslində qarşımıza çıxmayan, özümüzün yaşayıb təcrübədən keçirmədiyimiz, doğruluğunu sübut etmədiyimiz düşüncələr, hətta deyərdim, öndüşüncələr var? Buna sosiologiyada bilgi tənbəlliyi və ya bilgi marağı deyilir, ya da, elə hər ikisi bir arada. Belə ki, insanlar qarşısına yeni çıxan obyekt haqqında tezcə məlumat almaq istəyirlər, yəni vaxt itirmədən, hətta bu məlumatı bu obyektin yanında yerləşən bütün oxşar obyektlərə də "yaymaq" və hamısını bir kateqoriyada cəmləşdirmək istəyirlər. Bu insanların işini "asanlaşdırır", çünki onlar bilgisizlikdən qorxurlar. Təsəvvür edin, ilk dəfə tanımadığınız yerə gedirsiniz, yol boyu qarşınıza çıxan hər şey sizi narahat edir, hər şey barədə məlumat almaq istəyirsiniz. Hər şey barədə nə isə öyrənə bilməsəniz də, ən azından bir obyekt haqqında öyrənib onu başqaları haqqında da doğru bilməlisiniz və beləcə siz, məsələn, yolda bir neçə yarpaqları tökülmüş ağac gördükdən sonra, üstü yarpaqlı ağaclar olsa belə, deyirsiniz ki, bu yolun bütün ağacları yarpaqsızdır. Beləcə ah çəkib rahatlayırsınız, çünki bu tanımadığınız bu yolun ən azından "bütün" ağacları barədə məlumatınız var. Beləcə həmin strategiyanı qarşınıza çıxan bütün obyektlərə, daşlara, dağlara tətbiq edirsiniz.

Tək ağac və daş deyil, insanlar, ölkələr barədə də belədir. Məsələn, gedib bir-bir bütün irlandiyalını və ya avstriyalını incələmək, analiz etmək əvəzinə qarşımıza çıxan bir-iki irlandiyalı və ya avstriyalı "vasitəsi ilə" biz bütün ölkə əhalisi haqqında ümümi, içinə hamının daxil olacağı bir düşüncə formalaşdırırıq. Niyə - təkrar edirəm, çünki biz hər şey haqqında bilgi almaq istəyir, amma bunu etməyə ərinir və qısa yolla gedərək az bilgini beləcə yalnış yolla "çoxaldırıq".

Avstriyaya da ilk gələndə qarşımıza çıxan ciddi bir avstriyalını görüb "əşşi, avstriyalılar çox soyuqdurlar" deyirik. Beləcə həyat bizim üçün rahatlaşır, "bütün" avstriyalıları tanıyırıq artıq, ölüm yoxdur bizə. Əsas odur soyuqluq etiketini, ya hər nə etiketi olur olsun, onu vurduq, bitti. Soyuqluq nədir, soyuq nəyə deyilir, bununla da heç maraqlanmırıq.

Əslində soyuqluq anlayışımız da fərqlidir. Avstriyalıları soyuq göstərən onların ciddi, məsuliyyətli, öz öhdəliklərini bilib onları yerinə yetirmələri, öz haqlarını bilib ondan istifadə etmələri və ya tələb etmələridir (təbii ki, bütün avstriyalı belə deyil və onlar haqqında bu da bir ümmumiləşdirmə kimi alınmasın). Burada insanlar öz həyatlarını yaşayırlar!

Gürcüstanda və ümumi Qafqaz ölkələrində məktəblərdə şagirdlərə hər şeylə yanaşı, məncə bu da öyrədilməlidir – sən bircə həyat yaşamaq üçün gəlmisən bu dünyaya, sadəcə öz həyatını! Burax 5-6 həyat yaşamağın başını – qonşunun həyatı, qohumun həyatı, övladın həyatı, iş yoldaşının həyatı və s. Sadəcə öz həyatını yaşa, çünki bir neçə yerə bölünməkdənsə, biri daha rahatdır. Avstriyada insanlar bunu edirlər, elə bunu etdiklərinə görə sifət olaraq onlar üçün "soyuq" sözünü düşünüblər. "Pah, elə şeymi olar ki, qonşu qonşunun yeni aldığı paltaryuyan maşınının qiymətini bilməsin" – Avstriyada bilmirlər, burada heç maraqlanmırlar da. Niyə? Çünki o qonşunun həyatıdır və biz razılaşmışdıq, axı hərənin öz həyatı var.

Bəs bu bircə dənə həyat darıxdırıcı və maraqsız deyilmi? Necə mən qonşumun qızına bəy tərəfindən gətirilən qızıllar ilə maraqlanmayım axı? Darıxdırıcı deyil! Burada insanların darıxmağa vaxtları belə yoxdur. Avstriyalıların əksəriyyəti səhər demədən, axşam demədən, əlinə vaxt, fürsət keçən kimi qaçır, idman edir, qaçmaqdan yorulanda iti ilə birlikdə (burada çox adamın iti var) yaşıllıqları ilə bol olan parklara, göllərə gəzməyə gedir. İti yerinə övladı, ailəsi varsa, onlarla parka gedir, oynayır, və ya sadəcə söhbət edir, bir-birlərini dinləyirlər. Velosipedlə işə və universitetə gedib-gəlirlər (professorlar belə). Axşamlar hələ evlənməmiş və ya artıq evli cütlüklər yaşlarından asılı olmayaraq rəqs kurslarına gedirlər (elə mən də). Məqsədləri rəqs mütəxəssisi olmaq olmasa da, mənfi enerjini, yorğunluğu atmaq, beyni mənfi düşüncələrdən qısa müddətlik də olsa azad etməkdir və daha nələr, nələr.



P.S.

Aprelin 24-ü (unutmaram) dayanacaqda oturub avtobusun gəlməyini gözləyirdim. Həmin gün bir dərsimin şəhərin mərkəzində olduğuna və ora avtobusla getməyə məcbur olduğuma görə gileylənmək əvəzinə xoşbəxt idim. Dayanacağa orta yaşlı avstriyalı qadın gəldi. Oturmaq istədiyini düşünərək biraz yana çəkildim, amma almanca söylədiyi cümlələri başa düşmədiyimi dedikdə ingiliscə danışaraq söhbətimizə başlamış olduq. Gürcüstanı çox sevdiyini, amma təyyarə qorxusunun olduğuna görə ora gedə bilmədiyini dedi. Avtobusda da uzun-uzun danışdıq. Bir də baxdım, çantasından bir ətir çıxarıb mənə verir, o qədər sevindirici məqam idi ki! "Soyuq" avstriyalı mənə ətir hədiyyə edib, məni qucaqlamışdı həmin gün!..

Narmina Guseinova
Avstriya, Klagenfurt

## MÜSTƏNTİQLƏR YETKİNLİK YAŞINA ÇATMAMIŞ ŞƏXSLƏRİN MÜHAKİMƏ OLUNMASI MƏSƏLƏSİ İLƏ BAĞLI ƏLAVƏ HAZIRLIQ KURSU KEÇİBLƏR

Daxili İşlər Nazirliyinin yetkinlik yaşına çatmamış şəxslərin mühakimə olunması istiqamətində xüsusi olaraq çalışan 50-yə qədər müstəntiqi əlavə 5 günlük hazırlıq kurs keçiblər.

İlkin mərhələdə təlim üçün müstəntiqlər yetkinlik yaşına çatmamış şəxslərin törətdikləri və onlara qarşı törədilmiş cinayətlərin göstəricilərinin yüksək olduğu rayonlardan seçiliblər.

Hazırlıq kursu qanuna qarşı olan və cinayət qurbanı və şahid olan uşaqlara istiqamətlənib. Tədris daxili və beynəlxalq hüquqi məsələlərdən, eləcə də uşaqlarla münasibətdə psixoloji aspektlərdən ibarət olub. Hazırlıq İnsan Hüquqlarının Müdafiəsi Departamentinin təşəbbüsü və BMT-nin Uşaq Fondunun maddi dəstəyi ilə həyata keçirilib.



Yetkinlik yaşına çatmamış şəxslərin mühakimə olunmasına qoşulan müəssisələr arasında koordinasiyanın artırılması məqsədi ilə təlimdə həmçinin məhkəmə, prokurorluq, Cəzaçəkmə və Probasiya Nazirliyi, Sosial Xidmət Agentliyi, Mandatur Xidməti, Hüquqi Yardım Xidməti və Sosial İşçilər Assosiasiyasının nümayəndələri iştirak ediblər. Onlar birgə təcrübədə olan halları müzakirə ediblər.

Yetkinlik yaşına çatmamış şəxslərin mühakimə olunması məsələsinə dair müstəntiqlərin kvalifikasiyasının artırılması prosesi gələcəkdə də davam etdiriləcək.

## ŞAGİRDLƏR BAŞQA ŞAGİRDLƏRİN ALÇALDILMASI ZAMANI NECƏ REAKSİYA GÖSTƏRİRLƏR – XALQ MÜDAFİƏÇİSİNİN ARAŞDIRMASININ NƏTİCƏLƏRİ

Xalq Müdafiəçisinin İnsan Hüquqları Akademiyasının araşdırması bir daha təsdiqlədi ki, məktəblərdə bulinq əsas və həll olunmamış problemlərdən biridir. Araşdırmada sorğulanan şagirdlər başqa şagirdin məsxərəyə qoyulması və alçaldılması faktını eşitdikləri və ya şahidi olduqları haqqında danışırlar, belə hallarda nə ediblər və özləri bulinq qurbanı olublar, ya yox.

İnsan Hüquqları Akademiyasının araşdırmasına əsasən, şagirdlərin əksəriyyəti, təqribən 86-90%-i müxtəlif səbəblərə görə məsxərə və ya alçaldılma qurbanı olublar. Ancaq onların bir hissəsi başqalarının alçaldılması faktı haqqında açıq söhbət edirlər. Son bir il ərzində şagirdin alçaldılması faktı ilə bağlı şagirdlər arasında aparılan sorğunun cavabı aşağıdakı kimi bölünür:

Fiziki alçaldılma haqqında şagirdlər eşidiblər: 32,5% bəzən, 15,2% tez-tez, 46,6% heç vaxt;

Şifahi alçaldılma haqqında şagirdlər eşidiblər: 40,7% bəzən, 25,1% tez-tez, 30,3% heç vaxt;

Elektron alçaldılma haqqında şagirdlər eşidiblər: 17,4% bəzən, 10,9% tez-tez, 59,7% heç vaxt;

Tədqiqat həmçinin göstərdi ki, şagirdlər başqa şagirdin alçaldılması və məsxərəyə qoyulmasına şahid olan zaman nə edirlər. Nəticələrə əsasən, şagirdlərin 37%-i bildirib ki, alçaldılma və məsxərə qurbanı olana özləri kömək edib, 16,6%-i məlumatı müəllimə çatdırıb, 11,1%-i məktəb direktoruna, direktor müavininə və ya rəhbərlikdən başqa əməkdaşa məlumat verib.

Son bir il ərzində başqa şagirdə qarşı həyata keçirilən alçaldılma və məsxərəyə qoyma kimi halların şahidi olan, ancaq heç nə etməyən şagirdlər isə 12,4%-dir, yəni 661 sorğuda iştirak edən şagird. İnsan Hüquqları Akademiyasının sözlərinə görə, bu, olduqca yüksək göstəricidir.

Tədqiqat zamanı şagirdlərin hərəkətsizliyinin üç əsas səbəbi aşkarlanıb:

I – şagirdlərin 27,1%-i zorakılığa qoşulmaq istəmir;

II – şagirdlərin 19,7%-i bilməyib nə desin, və ya nə etsin;

III – şagirdlərin 11,6%-nin fikrincə başqa şəxslərə desələr də, onlar yenə heç nə etməyəcəkdilər.

Qeyd olunmalıdır ki, alçaldılma səbəbi olaraq müxtəlif faktorlar göstərilir. Onlar arasında irqi/etno mədəni/dini məxsusluq, həmçinin seksual orientasiya, məhdud imkanlar və sosial status da var.

Araşdırma 2017-ci ilin noyabr – 2018-ci ilin may ayı dövründə 64 ictimai və özəl məktəbdə aparılıb və üç məqsədli qrupu, 7-ci və 12-ci sinfin şagirdlərini, tədris proqramı insan hüquqları aspektini və məktəb rəhbərliyini əhatə edib. Ümumi olaraq araşdırmada 1480 şəxs iştirak edib.

## YENİ TƏDRİS İLİNDƏN GÜRCÜSTANIN 11 REGİONUNDA 84 KÖNÜLLÜ İNGİLİS DİLİ MÜƏLLİMİ ÇALIŞACAQ

Gürcüstanın təhsil və elm nazirinin müavini Aleksandre Tevzadze və Gürcüstanda ABŞ-ın Sülh Korpusunun direktor vəzifəsini yerinə yetirən Karmen Şihan yeni 5 illik əməkdaşlıq memorandumu imzalayıblar. Memorandumun imzalanması ABŞ-la münasibətləri daha da möhkəmləndirəcək və Gürcüstanın regionlarında ingilis dili səviyyəsinin artmasına kömək edəcək.

Memorandum əsasında 2018-2019-cu tədris ilindən 84 könüllü ingilis dili müəllimi Gürcüstanın 11 regionunda xidmət göstərəcək. Könüllülər ictimai məktəb şagirdləri ilə çalışacaqlar və yerli ingilis dili müəllimlərinə kömək edəcəklər. Qısa müddətli dəstək proqramı çərçivəsində Sülh Korpusunun könüllüləri həmçinin peşəkar kolleclərin və Resurs Mərkəzlərin əməkdaşlarına, tələbələrə, maraqlanan şəxslərə ingilis dili səviyyəsinin, müəllimlərin peşəkar bacarıqlarının inkişafı və başqa istiqamətlərdə kömək edəcəklər. Yeni memoranduma əsasən, gəncliyin inkişafına istiqamətlənmiş proqramlar da qüvvəyə minəcək. Proqramları amerikalı könüllülər Gürcüstan Təhsil və Elm Nazirliyinin Gənclik Siyasətinin İdarəsi Departamenti, gənclər mərkəzləri və Qeyri-Hökumət Təşkilatları ilə birgə həyata keçirəcək.

İşə başlayana qədər könüllülər davamlı şəkildə təlimlər keçəcəklər. Təlimlər gürcü dili, mədəniyyət və layihə ilə bağlı bacarıqların öyrənilməsindən ibarətdir. Könüllülər 2 il müddətində burada ailələrdə yaşayacaqlar.

Xatırladaq ki, Sülh Korpusu ilə Gürcüstan 2001-ci ildən əməkdaşlıq edir və bu müddət ərzində artıq 815-dən artıq könüllü ölkədə xidmət göstərib.

## YENİ BAŞ NAZİRİN PROQRAMINA ƏSASƏN, MÜƏLLİMLƏR LAYİQLİ ƏMƏK HAQQI ALACAQLAR

Gürcüstanın baş naziri Mamuka Baxtadze 2018-2020-ci illərin "Azadlıq, sürətli inkişaf, firavanlıq" adlı hökumət proqramını təqdim edib.

52 səhifəlik proqram bir neçə əsas istiqamətdən ibarətdir. Onlar arasında təhsil sahəsi oduqca geniş yer tutur. M. Baxtadze təhsil haqqında söhbəti zamanı pedaqoqların layiqli əmək haqqı alacaqları məsələsinə xüsusi diqqət ayırıb:

"Hökumət pedaqoqların peşəkar prestijinin artmasının və onların layiqli əmək haqqı almasının qayğısına qalacaq", – deyə proqramda qeyd edilir.

Ancaq pedaqoqların maaşı ilə bağlı dəyişikliyin nə zaman həyata keçiriləcəyi və əmək haqqının nə qədər olacağı qeyd edilməyib. Proqrama əsasən, pedaqoqların maaşının artırılması ölkənin iqtisadi inkişafından asılı olacaq: "Ölkənin iqtisadi inkişafı və onların peşəkar nailiyyətlərinə uyğun olaraq dövlət siyasəti planlaşdırılacaq".

Müəllimlərin peşəkar inkişafına gəldikdə isə, proqrama əsasən, dövlət müəllimlərin peşəkar inkişafına davamlı dəstək göstərir.

"Müəllimlərin hazırlanması sisteminin təkmilləşdirilməsi məqsədi ilə inteqrasiya olmuş – bakalavr, magistr tədris proqramının əsası qoyulacaq. Məktəblərə yeni və kvalifikasiyalı kadrların cəlb olunması məqsədi ilə ali təhsilli şəxslər üçün müəllimlərin hazırlığı üçün akreditasiya edilmiş 60-kreditlik təhsil proqramı davam edəcək. Dövlət müəllimlərin peşəkar inkişafına dəstəyi davam etdirir. Praktiki bacarıqların inkişafı və peşəkar biliyin artırılması təmin olunacaq. Tədris prosesinin və məktəblərin idarəsinin təkmilləşdirilməsi məqsədi ilə tədris lideri olaraq məktəb direktorlarının peşəkar inkişafına dair geniş miqyaslı proqramların həyata keçirilməsi davam edəcək", - deyə proqramda qeyd olunur.

## ATTESTATLARIN VERİLMƏSİ BAŞLAYIB




İyunun 25-dən etibarən Gürcüstanda fəaliyyət göstərən ictimai məktəblərin hər bir məzunu ədliyyə evlərinə, dövlət xidmətlərinin inkişaf agentliklərinin filiallarına və ictimai mərkəzlərə müraciət edərək məktəbi bitirmək haqqında attestat əldə edə bilərlər. Ədliyyə Evinin icraçı direktoru Qivi Azauraşvilinin və Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin sədri Soso Giorqadzenin brifiqində dediyinə görə, cari ildə 12-ci sinfi bitirən 40 000-ə qədər abituriyent qeydiyyatdan keçib və onlar attestatlarını ərizə təqdim etdikdən 10 gün müddətində pulsuz alacaqlar.

Attestatı almaq üçün məzunlar ədliyyə evlərində, xidmətlərin inkişafı agentliklərinin filiallarında və ictimai mərkəzlərdə uyğun ərizə doldurmalıdırlar. Sənəd müraciəti daxil etdikdən 10-cu iş günündə veriləcək. Əgər məzun attestatın tezləşdirilmiş qaydada alınmasını istəyirsə o, müəyyən məbləğ ödəməli olacaq.

Attestatı ərizə verdiyi gün almaq istəyən məzunlar 50 lari, iki iş günü ərzində sənəd almaq istəyən 40 lari, üç iş günü ərzində 30 lari, beşinci gün isə 20 lari ödəməlidirlər. Məzunlar attestatı pulsuz əldə etmək üçün 31 dekabr tarixinə qədər müraciət edə bilərlər. Maraqlanan şəxslər attestatın əldə edilməsi üçün səlahiyyətli xidmətə ilin sonuna qədər müraciət etməzsə həmin şəxsə gələn il attestatın dublikatı veriləcək. Məzunlar hər iş günü saat 09:00-dan 18:00-a kimi attestat üçün ərizə daxil edə və sənəd ala bilərlər.

## RESURS MƏRKƏZLƏRƏ PSİXOLOQ ŞTATI ƏLAVƏ OLUNACAQ



Gürcüstanın təhsil və elm naziri vəzifəsini yerinə yetirən Mixeil Çxenkeli birləşmiş komitələrin iclasında deputatları təhlükəsiz tədris mühitinin təmin edilməsi məqsədi ilə işlənilmiş dəyişikliklərlə tanış edib.

Nazirin sözlərinə görə, artıq təhlükəsiz məktəb strategiyasının sənədi işlənilib. Strategiya zorakılıq və bulinqin aradan qaldırılması istiqamətində bir çox maarifləndirici və məlumatın artırılmasına istiqamətlənmiş aktivliklərdən ibarətdir. Həmçinin qanunvericilikdə mandatur xidmətinin inkişafı üçün bir sıra dəyişikliklər həyata keçirilir.

Mixeil Çxenkeli eləcə də risklərin vaxtında və effektli şəkildə aşkarlanması və idarəsi məqsədi ilə müəllimlərin, məktəb administrasiyası nümayəndələrinin, mandaturların, psixoloq və məktəbdə təhlükəsizlik prosedurlarına cavabdeh olan şəxslərin hazırlanması diqqətə yetirib. Həmyaşıdların bulinqə qarşı birgə tədris layihələri başlayıb. Sentyabrdan isə rəqəmsal vətəndaşlıq və maarifləndirici proqramların əsası qoyulacaq.

Psixoloji xidmət bazasında böhran intervensiya qrupları yaradılıb. 24 saat ərzində zorakılıqla bağlı məlumatlandırmaya və müxtəlif aqressiya formalarının başlanğıc mərhələdə aşkarlanmasına dəstək üçün psixoloji yardıma görə qaynar xətt və veb-səhifə qüvvədədir. Resurs Mərkəzlərə psixoloq ştatı əlavə olunacaq.

Məktəblərdə məlumatlandırma kampaniyası məqsədi ilə ölkənin aparıcı psixoloqları ilə əməkdaşlıqla konkret rekomendasiyalar işlənilib və məktəblərə şagirdlər, müəllimlər və valideynlər üçün flayer formasında paylanacaq. Davamlı şəkildə "Şagirdləri dinləyək" proqramı həyata keçirilir. Proqram çərçivəsində bulinqlə bağlı 70 000-dən artıq şagird öz mövqeyini bildirib və onların baxışları strategiyada qeydə alınıb.

Nazirin sözlərinə görə, məktəb və valideynlər arasında müqavilə bağlanacaq. Müqavilə zorakılıq riskləri ilə bağlı prosesləri birgə idarə etmək öhdəliyini nəzərə alır. Sağlam həyat tərzinin populyarlaşdırılması məqsədi ilə məktəblərdə yeniyetmələrin fiziki inkişafına böyük diqqət ayrılır. Müvafiq olaraq məktəblərdə idman tədbirlərinin büdcəsi ikiqat artırılıb.

## HEYDƏR ƏLİYEV FONDU GÜRCÜSTANA İKİ TƏCİLİ TİBBİ YARDIM MAŞINI HƏDİYYƏ EDİB

Heydər Əliyev Fondu Gürcüstana iki təcili tibbi yardım maşını hədiyyə edib.

Maşınlardan biri azərbaycanlıların sıx yaşadıqları Qarabani rayonunun bələdiyyəsinə, digəri isə Bolnisi rayonuna hədiyyə edilib.

Bütün lazımı avadanlıqlarla təchiz olunmuş müasir təcili tibbi yardım maşını Qardabani rayon rəhbərliyinə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov tərəfindən təqdim olunub.

Tədbirdə çıxış edən Fuad Muradov Azərbaycanın Gürcüstanla münasibətlərin möhkəmləndirilməsinə böyük önəm verdiyini bildirib.



Qardabani meri Ramaz Budağaşvili təcili tibbi yardım maşınına görə minnətdarlığını bildirib. O qeyd edib ki, rayonun bu cür təcili tibbi yardım maşınına böyük ehtiyacı olub.

## KVEMO KARTLİ QUBERNATORU QARDABANİ BƏLƏDİYYƏSİNİN RƏHBƏR ŞƏXSLƏRİ İLƏ BİRGƏ HƏYATA KEÇİRİLƏN VƏ BAŞA ÇATMIŞ LAYİHƏLƏRİ NƏZƏRDƏN KEÇİRİB



Kvemo Kartli qubernatoru Qriqol Nemsadze, Gürcüstan Parlamentində Qardabaninin majoritar deputatı Savalan Mirzəyev, Qardabani meri Ramaz Budağaşvili, onun müavinləri David Canturia və Dünyamalı Hacıyev, Sakrebulo sədri Tariel Canxoteli, onun müavini Rəfi Orucov və yerli özünüidarəetmənin digər rəhbər şəxsləri Qardabani bələdiyyəsinin ərazi vahidlərində gedən və başa çatmış infrastruktur işlərini nəzərdən keçiriblər.

"Vəzifəli şəxslər Qaratəhlə, Qaracalar, Ağtəhlə, Vaxtanqisi, Kosalı və Nəzərli kəndlərində gedən və başa çatmış layihələri nəzərdən keçiriblər. Eyni zamanda yerli əhali ilə görüşüblər və onların ehtiyacları haqqında məlumat alıblar. Əhali qubernatora və bələdiyyə merinə həyata keçirilən layihələrə görə təşəkkür edib və gələcəkdə həll olunacaq məsələlərdən danışıb.

2018-ci ildə Qardabani bələdiyyəsinin 8 kəndində daxili yollara asfalt qatının çəkilməsi üçün yerli büdcədən 3 milyon lariyə qədər məbləğ xərclənib", – Qardabani meriyası tərəfindən yayımlanan məlumatda bildirilir.

## QARDABANİ MERİ 72-Cİ TƏDRİS YARADICILIQ KONFRANSININ UĞURLU İŞTİRAKÇILARINI MÜKAFATLANDIRIB

Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili 72-ci Respublika Tədris Yaradıcılıq Konfransı Turunda qalib gəlmiş şagirdləri və onların müəllimlərini qəbul edib və şagirdləri kitablarla mükafatlandırıb.

Qaliblər Sarticala 1 nömrəli ictimai məktəbinin XI sinif şagirdi Giorgi Qenqaşvili, Lemşveniera ictimai məktəbinin XI sinif şagirdi Klara Qaldani, Zurab Beqiaşvili adına Kumisi ictimai məktəbinin X sinif şagirdi Ani İvanişvili və Muğanlı ictimai məktəbinin IX sinif şagirdi, şagird-gənclər mərkəzinin, gürcü dili tədris kursunun üzvü İrza İrzayevdir.



Mer gənclərə təşəkkür edib və onlara dəstək olacağına vəd verib.

Şagirdlərin 72-ci Respublika Tədris Yaradıcılıq Konfransı Turunda Qardabani bələdiyyəsinin şagirdlərinin işləri on ən yaxşı iş arasına düşüb.

## QARDABANİ GƏNCLƏR MƏRKƏZİNİN NƏZDİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN "GÜL UŞAQ BAĞÇASI"NIN MƏZUNİYYƏT TƏDBİRİ KEÇİRİLİB



İyunun 27-si Gürcüstan Gənclərinə Yardım və Maarifləndirə Təşkilatının Qardabani şəhərində yerləşən mərkəzi ofisində Qardabani Gənclər Mərkəzinin nəzdində fəaliyyət göstərən "Gül Uşaq Bağçası"nın məzuniyyət tədbiri keçirilib.

Tədbirin açılışı bağça uşaqlarının Gürcüstanın dövlət himnini oxumaları ilə başlayıb. Sonra uşaqlar müəllimlərinin zəhməti nəticəsində ərsəyə gəlmiş bir-birindən maraqlı rəqs, mahnı və şeirlərlə çıxış ediblər. Buraxılış tədbirində uşaqların valideynləri də iştirak ediblər.

## XARİCDƏ YAŞAYAN SOYDAŞLAR GÜRCÜSTAN VƏTƏNDAŞLIĞINI ALDIQDA YAŞADIQLARI ÖLKƏNİN VƏTƏNDAŞLIĞINI DA SAXLAYA BİLƏCƏKLƏR

"Vətəndaşlıq haqqında" qanunda planlaşdırılan dəyişikliklərə əsasən, xaricdə yaşayan soydaşlar üçün Gürcüstan vətəndaşlığını əldə etmək asanlaşdırılmalıdır. Bundan əlavə, soydaşlarımıza imkan yaradılmalıdır ki, xarici ölkənin vətəndaşlığını alanlar Gürcüstan vətəndaşlığını da saxlasınlar. Bu haqda məlumatı Gürcüstan DİN-in diaspora ilə əlaqələr departamentinin direktoru Rati Breqadze bəyənat verib.



Breqadzenin dediyinə görə, xaricdə olan gürcü diasporası tərəfindən baş nazir Mamuka Baxtadzenin diaspora ilə bağlı səsləndirdiyi Gürcüstan vətəndaşlığının əldə edilməsi və gürcü dilinin tədrisi ilə bağlı təşəbbüslər müsbət qarşılanıb.

"Bildiyiniz kimi 2018-ci ilin prezident seçkilərindən sonra qüvvəyə minəcək konstitusiya dəyişikliklərinə əsasən, konstitusiyada ilk dəfə soydaş termini və dövlətin xaricdə yaşayan soydaşlarımızla əlaqənin qorunması və inkişafının qayğısına qalmaq öhdəliyi yaranıb. Daha bir dəyişiklik isə odur ki, ikili vətəndaşlığın konstitusional qadağan olunması konstitusiyadan çıxarılıb. Bu dəyişikliyin implementasiyası məqsədi ilə Gürcüstan Parlamentində müvafiq qrup çalışır və "Vətəndaşlıq haqqında" orqanik qanunda dəyişiklik hazırlanmalıdır. Nəticədə xaricdə yaşayan soydaşlarımız üçün vətəndaşlıq almaq müəyyən qədər asanlaşmalıdır. Bundan əlavə, soydaşlarımıza imkan yaratmalıyıq ki, xarici dövlətin vətəndaşlığını götürsün və eyni zamanda müəyyən ön şərtləri nəzərə alaraq Gürcüstan vətəndaşlığını da saxlasın. Bu, planlaşdırılmış dəyişikliklərin əsasıdır və təbii ki, Parlamentdə müzakirə mövzusu olacaq", – deyə R. Breqadze bildirib.

İkili vətəndaşlığa gəldikdə isə Breqadze bildirib ki, hər ölkənin öz tənzimləməsi var – bəzi ölkələr iki və ya daha çox ölkənin vətəndaşlığına yol verir, bəziləri isə ümumiyyətlə yol vermir.

Gürcü dilinin xaricdə yaşayan soydaşlar üçün tədrisinə gəldikdə isə Rati Breqadzenin dediyinə görə, Xarici İşlər Nazirliyi cari ildə həftəlik məktəblərə dəstək layihəsi həyata keçirir. Məktəb çərçivəsində Təhsil Nazirliyi ilə əməkdaşlıqla artıq məktəblər üçün xüsusi proqram yaradılıb.

"Bundan əlavə, biz ilk dəfə həftəlik məktəb üçün əvəzsiz olacaq dərsliyin hazırlanmasına başladıq. Həftə məktəbləri üçün xüsusi proqram hazırlandı və buna əsasən üç səviyyəli dərslik hazırlanır. Dərsliyə əsasən, uşaqlar həftə məktəblərində gürcü dilini və bununla yanaşı, tarix, coğrafiya və mədəniyyət öyrənə biləcəklər. Hər üç kitabın tam komplekti 20 avqust tarixinə hazır olacaq, sentyabr-oktyabr aylarında isə biz bu dərsliklərə əsasən müəllimlərin hazırlanmasını planlaşdırırıq. Nəticədə həftə məktəbləri ilə bağlı mövcud olan problemlər həmişəlik həll olunacaq", – bildirib Rati Breqadze.

## CARİ İLİN YANVAR AYININ 1-DƏN ETİBARƏN SÜKANIN YERİ DƏYİŞDİRİLMİŞ AVTOMOBİLLƏR TEXNİKİ BAXIŞDAN KEÇƏ BİLMƏYƏCƏK

Sükanı sağ tərəfdə olan avtomobillər də digər maşınlar kimi müntəzəm texniki baxışdan keçəcəklər. Lakin 2018-ci ilin 1 yanvar tarixindən sonra ilkin qeydiyyatdan keçmiş sükanı sağda olan maşınlar bu tarixdən sonra sükanın idarə olunması sistemində əlavə dəyişiklik edilməsi halında müntəzəm texniki baxışdan keçə bilməyəcəklər.

Bundan əlavə, 2018-ci il 1 yanvar tarixindən etibarən ilkin qeydiyyatdan keçmiş və texniki baxış hesabatında sükanın yeri göstərilmiş maşınlar sonrakı texniki baxış zamanı sükanın yeri dəyişdirilmiş olarsa texniki baxışdan keçə bilməyəcəklər.

Qeyd edək ki, vətəndaşlar texniki baxış məsələləri ilə bağlı 1484 nömrəli qaynar xəttə müraciət edə bilərlər.

## TÜRKİYƏDƏ TİBB TƏHSİLİ ALAN TƏLƏBƏLƏRƏ SERTİFİKATLAR VERİLİB

İyunun 28-i Tbilisidə Gürcüstan Yaşıl Ay Cəmiyyətinin ofisində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) Türkiyənin Uludağ Universiteti və Bursa Bələdiyyəsi ilə ortaq həyata keçirdiyi "Gürcüstanlı tibb tələbələrinin Türkiyədə təcrübə və gəzinti layihəsi"ndə yer alan 26 tələbəyə sertifikat təqdimetmə mərasimi keçirilib.

Gürcüstan Yaşıl Ay Cəmiyyətinin əməkdaşı Həcər Mustafayevanın tədbiri açıq elan etməsindən sonra layihə ilə əlaqəli video film göstərilib. Sonra GYMD-nin sədri Musa Hacıyev çıxış edərək layihə haqqında danışıb və tələbələrə gələcək həyatlarında və işlərində uğurlar arzulayıb. Gürcüstan Yaşıl Ay Cəmiyyətinin müdiri İsə Xəmmədov da çıxış edərək həm bir tibb universiteti məzunu, həm də aktiv gənc kimi mövzuya nəzər yetirib və həmkarlarına uğurlar arzulayıb.



Daha sonra tələbələrə sertifikatlar təqdim edilib. Sertifikatları GYMD-nin sədri Musa Hacıyev, GYMD-nin mətbuat şöbəsinin sədri Hacı Bəkiroğlu, GYMD-nin tələbə yataqxanalarından məsul şəxs Şirxan Çobanov və Yaşıl Ay Cəmiyyətinin müdiri İsə Xəmmədov təqdim edib. Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 İYUN 2018-Cİ İL
№009 (68)

## TBİLİSİDƏ AZƏRBAYCAN TEATRININ HAZIRLADIĞI "OYUNBAZ" TAMAŞASININ PREMYERASI OLUB



İyunun 17-si Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının aktyorlarının iştirakı ilə "OYUNBAZ" adlı tamaşanın premyerası baş tutub. Tamaşa Şalikaşvili adına Tbilisi Pantomima Teatrının səhnəsində nümayiş etdirilib. Gürcü dramaturqu Akvsenti Tsaqarelinin pyesi əsasında hazırlanmış bir pərdəli vodevilin quruluşçu rejissoru Koba Sxiladze, rəssamı Qriqol Asatiani, xareoqrafı Veka Pirmisaşvilidir. Rolları teatrın gənc aktyorları Şeyla Cəfərova, Binəli İslamoğlu, Fazil Bayramov və Azər Musaoğlu canlandırıb.

Qeyd edək ki, sentyabr ayından eyni tamaşa ilə teatr azərbaycanlıların kompakt yaşadığı regionlara qastrol səfərləri planlaşdırır.

## BP-NİN YENİ VİTSE-PREZİDENTİ AZƏRBAYCANLI TƏYİN OLUNUB



BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə modernləşdirmə və transformasiya proqramına rəhbərlik edən Nərminə Nəbiyeva 18 iyun 2018-ci il tarixindən şirkətin insan resursları üzrə vitse-prezidenti təyin olunub.

Bu vəzifədə N. Nəbiyeva BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə rəhbər qrupunun, həmçinin BP-nin apstrim seqmentinin insan resursları üzrə regional rəhbər qrupunun üzvü olacaq.

Nərminə Nəbiyeva bu yeni vəzifəyə biznes əlaqələri və rəhbərlik sahəsində zəngin təcrübəsi ilə gəlir. Bundan əvvəl o, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə insan resursları şöbəsində, Hindistanda BP-nin Reliance şirkəti ilə tərəfdaşlığı fəaliyyətində və BP-nin apstrim seqmentinin talant və öyrənmə qrupunda çalışıb.

N. Nəbiyevanın Dövlət İdarəçilik Akademiyasından dövlət idarəçiliyi və iqtisadiyyat üzrə bakalavr dərəcəsi və Böyük Britaniyanın Robert Qordon Universitenindən menecment üzrə diplomu var. O, həmçinin İnsan Resurslarının İdarə Olunması və İnkişafı üzrə ixtisaslaşmış İnstitutun (CİPD) üzvüdür.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI XARİCDƏ NƏ QƏDƏR PUL XƏRCLƏYİRLƏR

Gürcüstan vətəndaşları 2018-ci ilin yanvar-may aylarında xaricdə bank kartları ilə 650 635 000 lari xərcləyiblər. Ötən ilin analoji dövrü ilə müqayisədə bu məbləğ 165,1 milyon laridən çoxdur. 2017-ci ilin yanvar-may aylarında rezidentlər (bir ölkənin daim başqa ölkədə yaşayan vətəndaşı) tərəfindən xaricdə xərclənən məbləğin həcmi 485 521 000 larini təşkil edib. 2018-ci ilin may ayında isə Gürcüstan vətəndaşları xaricdə 146 362 000 lari xərcləyiblər.

Gürcüstan Milli Bankının statistikasına əsasən, may ayında rezident bankların kartları ilə, bankomatla 34 363 000 lari xərclənib, Pos-terminallar, imprinter və internetlə 11 998 000 lari dəyərində əməliyyat yerinə yetirilib.

2017-ci ildə isə Gürcüstan vətəndaşları xaricdə bank kartları ilə 1, 334 milyard lari xərcləyiblər. Keçən illə müqayisədə bu məbləğ 38,7 faiz çoxdur. Milli Bankın göstəricilərinə əsasən, 2016-cı ilin yanvar-dekabr aylarında rezidentlər tərəfindən xaricdə xərclənən məbləğin həcmi 961,7 milyon larini təşkil edib.




## "GÜRCÜ NƏSRİ ANTALOGİYASI" KİTABI NƏŞR EDİLİB



Azərbaycan Tərcümə Mərkəzinin yeni nəşri – "Gürcü nəsri antologiyası" kitabı işıq üzü görüb.

Müasir gürcü ədəbiyyatının ümumi mənzərəsini ilk dəfə küll halında Azərbaycan oxucusuna təqdim edən kitaba Mixeil Cavaxişvili, Cabua Amirecibi, Tamaz Çiladze, Revaz İnanişvili, Nuqzar Şataidze, Maka Coxadze, Şota İataşvili, İrakli Cavaxadze, Marina Soskolauri kimi, otuzdan çox tanınmış gürcü ədibinin əsərləri toplanıb.

Kitabı tanınmış Azərbaycan yazıçıları Nəriman Əbdülrəhmanlı və Etimad Başkeçid tərtib edib. Kitabda yer alan əsərləri gürcü dilindən Azərbaycan dilinə Nəriman Əbdülrəhmanlı, Emin Mahmud, Allahverdi Təkləli, Mirzə Məmmədoğlu, Kamuran, Həmzəli İlyas, Nəriman Əliyev, Elnur Əliyev tərcümə ediblər. Ön sözün müəllifi professor Bədirxan Əhmədlidi.

## DEPORTASİYA OLUNAN GÜRCÜSTAN VƏTƏNDAŞLARININ SAYI ARTIB




İnformasiya Azadlığının İnkişafı İnstitutunun (IDFI) məlumatına əsasən, 2015-2017-ci illər ərzində xarici ölkələrdən 11 428 Gürcüstan vətəndaşı deportasiya edilib.

Ən çox deportasiya 2017-ci ildə qeydə alınıb. Gürcüstan vətəndaşları ən çox Türkiyə, Almaniya, İsrail və Rusiyadan deportasiya olunublar.

Son üç il ərzində Türkiyə, İsrail və Yunanıstandan deportasiya hallarının sayı azalıb. Almaniyadan deportasiya olunanların sayı isə 2 dəfə artıb. Həmçinin Rusiya, Fransa, İsveçrə, İtaliya, Belçikadan deportasiya hallarının sayında da artım qeydə alınıb.

## İYULUN 1-DƏN POLİS ƏMƏKDAŞLARININ ƏMƏK HAQQI ARTIRILACAQ

İyulun 1-dən polis əməkdaşlarının əmək haqqı 250 lari artırılacaq. Bu barədə Gürcüstanın daxili işlər naziri Giorgi Qaxariya Parlamendə çıxışı zamanı bildirib. Onun sözlərinə görə, 13 200 polis əməkdaşının əmək haqqına 250 lari artırılacaq.

Qaxariya rəhbərlik etdiyi nazirliyin hər polisin sosial təhlükəsizlik və sosial təminat komponentinin nə qədər vacib olduğunu qeyd edib və buna görə də maaşlarının artırılacağını bildirib.

## 1 İYUL TARİXİNDƏN YANĞINSÖNDÜRƏNLƏRİN MAAŞI 20% ARTACAQ

İyulun 1-dən yanğınsöndürənlərin maaşı 20% artacaq. Bu haqda Fövqəladə Hallar İdarəsinin xidmət rəhbəri Giorgi Mğebrişvili məlumat verib. O, qeyd edib ki, yanğınsöndürənlərin maaşının artırılması mərhələli şəkildə olacaq. Maaşın artması haqqında baş nazir Mamuka Baxtadze Gürcüstan Parlamentində hökumətin yenilənmiş tərkibinin müzakirəsi zamanı bəyanat verib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bakiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.